# Xarici mətbuat Azərbaycanın haqq davasından yazır




## Azerbaijan claims to have retaken enough land in Nagorno Karabakh war to resettle 500,000 Azeris

Recapture of four Armenian-held districts will allow mass return of ethnically-cleansed Azeris, top Azerbaijani official tells Telegraph

By Colin Freeman
3 November 2020 • 4:14pm

**❒ *Dünya mətbuatı Dağlıq Qarabağda döyüş meydanında baş verənləri ardıcıl gündəmdə saxlayır.***

Fransanın“Le Monde” qəzetində “ Dağlıq Qarabağ: Azərbaycan Ermənistanı mülki şəxslərin qətlində günahlandırır” sərlövhəli məqalə dərc edilib. Məqalədə vurğulanır ki, Azərbaycanın Bərdə rayonuna raket zərbələrinin endirilməsi nəticəsində mülki əhalinin qətli artıq bir aydır davam edən hərbi əməliyyatlar zamanı qeydə alınmış ən ağır mülki insan tələfatıdır.

Qəzet “Frans-Press” agentliyinin Bərdədə olmuş müxbirinə əsasən qeyd edib ki,raket zərbələri nəticəsində mağazalar, binalar yerlə-yeksan olub, sakinlər küçələrə axışıb. Yaxınlıqda yanıb külə dönmüş bir neçə avtomobil və qan izləri də görünür. Vurğulanır ki, ABŞ-ın təşəbbüsü ilə atəşkəs razılaşmasının əldə edilməsindən cəmi iki gün sonra Bərdəyə raket zərbələri endirilib. Bazar günü əldə edilmiş razılaşma elə dərhal da pozulub.

“Le Monde” Azərbaycan Prezidenti İlham Əliyevin köməkçisi Hikmət Hacıyevin fikirlərinə yer ayırıb. Azərbaycan rəsmisi bildirib ki,Ermənistan silahlı qüvvələri mülki əhali arasında itkinin daha çox olması üçün Bərdəni “SMERÇ” raketindən atəşə tutub. Bu zaman kasetli bombalardan istifadə olunub.

Azərbaycan Baş Prokurorluğunun məlumatına görə, hücum zamanı ticarət obyektləri və yaşayış məntəqələri hədəfə alınıb. Nəticədə 21 mülki şəxs həlak olub, azı 70 nəfər yaralanıb.

Məqalədə vurğulanır ki, Dağlıq Qarabağda sentyabrın 27-dən bərpa olunmuş döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri 1990-cı illərdəki savaş zamanı itirdiyi torpaqların bir hissəsini geri qaytarıb.

“Le Monde” yazır ki, rəsmi Bakı Ermənistana qarşı tədbirlərin görülməsi, onun yaşayış məntəqələrinə raket hücumlarına son qoyması üçün Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edib. Bu tələb qurumun nizamnaməsinin 39-cu maddəsinə əsasən irəli sürülüb. Həmin maddə məhkəmə orqanına bu cür risklər olan zaman təcili tədbirlər görmək səlahiyyəti verir.

ABŞ-ın “The New York Times” qəzeti dətəcavüzkar ErmənistanınBərdəyə raket hücumlarınageniş yer ayırıb. Nəşr“ Azərbaycanda silsilə partlayışlar, qışqırtılar və ….qan” sərlövhəli fotoreportaj yayımlayıb.

Reportajın müəllifi Şarlotta Qall şahidi olduğu qanlı hadisə barədə hazırladığı reportajı bu cür başlayır: “İlk partlayış bizi maşını saxlamağa məcbur edəcək qədər güclü idi. Partlayışın çox yaxında baş verdiyini hiss etdik. Raket səsi idi. Odur ki, cəld avtomobili tərk edərək, divara söykəndik. Sonradan belə başa düşdüm ki, o anda dayanmasaydıq, cəmi 20 yard irəlidə baş vermiş partlayış nöqtəsində olacaqdıq.” Müəllif Bərdə küçələrində raket hücumu zamanı mülki əhalinin necə qaçdığını və həyatlarını itirdiklərini təsirli bir dillə təsvir edib. Müəllif fotoqraf Ayvor Priketlə birgə Azərbaycana gələrək münaqişəni işıqlandırdıqlarını vurğulayıb: “Biz Ermənistanla Azərbaycan arasında ötən ay alovlanmış münaqişəni işıqlandırırıq. Mən 20 il qabaq da Azərbaycanda olmuşdum. Odur ki, raket atəşi mənin üçün qeyri-adi hadisə deyildi. Bu gün hər kəs hesab edir ki, hərbi üstünlük Azərbaycanın tərəfindədir. Azərbaycan Ordusu dronlardan da istifadə edərək, erməni qüvvələrinin mövqelərini dəqiqliklə hədəfə alır. Lakin Azərbaycanın da cəbhə bölgəsinə yaxın şəhər və kəndləri, demək olar ki, hər gün raket zərbələrinə məruz qalır. Cəbhədən bir az aralıda yerləşən Bərdəyə hücum gərginliyin hansı həddə çatdığının göstəricisi sayıla bilər.”

Böyük Britaniyanın “The Telegraph” qəzetində “Azərbaycan yarım milyon köçkünü qəbul edə biləcək qədər torpaq qaytarıb” sərlövhəli məqalə dərc edilib. Məqalədə Azərbaycanınöz ərazisi olan Dağlıq Qarabağ uğrunda Ermənistanla apardığı müharibədə artıq xeyli ərazini geri qaytardığı vurğulanır. Qeyd olunur ki, azad edilmiş ərazilər azərbaycanlı məcburi köçkünlərinin yarım milyonunun geri qaytarılmasına imkan verir.

Azərbaycan Prezidentinin köməkçisi, Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Telegraph” nəşrinə açıqlamasında Azərbaycan Silahlı Qüvvələrinin 5 həftədir davam edən müharibədə artıq 4 vacib bölgəni geri qaytardığını söyləyib. Deməli, 500 min azərbaycanlı Ermənistan hərbi birləşmələrinin 1990-cı ilin əvvəlində tutduğu rayonlara qayıda bilərlər.

“Söhbət böyük ərazilərdən gedir. Odur ki, münaqişənin başa çatmasından sonra çox sayda azərbaycanlı doğma ev-eşiyinə qayıdacaq”, – deyə cənab Hacıyev qeyd edib: “Azərbaycanlı məcburi köçkünlər artıq 30 ildir bu ərazilərə qayıdacaqları anı gözləyirlər. Doğrudur, hələ oralarda böyük tikinti işləri aparılmalıdır. Bundan başqa, minalanmış ərazilər təmizlənməlidir. İstənilən halda, azad edilmiş hər bir kənd Azərbaycan xalqının uğurudur”.

Nəşr yazır: “Azərbaycan uzun illərdir Ermənistanın nəzarətində olan rayonlarından 4-nü geri qaytarıb. Bunlar Qubadlı, Füzuli, Zəngilan və Cəbrayıl rayonlarıdır. Bu rayonlarda ümumilikdə bir neçə şəhər və 200-dək kənd var. Cəbhə bölgəsində yerləşən bu ərazilər uzun illərdir tərk edilib... Cənab Hacıyevin sözlərinə görə, geri çəkilmək məcburiyyətində qalan Ermənistan bu əraziləri qəsdən dağıdır: “Onlar bir növ “yandırılmış ərazi” taktikasından istifadə ediblər. Məsələn, ordumuz Füzulini azad etdikdən sonra Azərbaycan bayrağını asmaq üçün bina tapa bilmirdik”.

Nəşr vurğulayır ki, 1990-cı illərin əvvəlində qızışmış müharibə nəticəsində 700 mindən çox azərbaycanlı ermənilərin nəzarət etdiyi Dağlıq Qarabağ və ona bitişik rayonlardan didərgin salınıb. Onlar bu gün ölkənin digər ərazilərində yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyevin hədəfi bütün məcburi köçkünləri doğma evlərinə qaytarmaqdır.

Prezidentin köməkçisi beynəlxalq birliyin Dağlıq Qarabağ regionunu Azərbaycan ərazisi kimi tanıdığını deyir. Onun sözlərinə görə, Azərbaycan hərbi əməliyyatlara Rusiya, Fransa və ABŞ-ın münaqişənin həlli ilə bağlı uzun illər həyata keçirdiyi diplomatik səylərin “dalana dirənməsindən” sonra başlayıb və bu, tamamilə qanunidir. Bakı bildirir ki, Ermənistan silahlı qüvvələri regiondan çıxarılmazsa, (Ermənistan hökuməti bundan imtina edir), Azərbaycan hərbi əməliyyatları Dağlıq Qarabağın mərkəzi bölgəsinə daşıyacaq.

Bu gün Dağlıq Qarabağın əhalisi, demək olar ki, etnik ermənilərdən ibarətdir. Burada 150 min erməni yaşayır. Hikmət Hacıyev deyir ki, regionun Azərbaycanın nəzarətinə qaytarılmasından sonra da orada etnik ermənilərin yaşaması üçün şərait yaradılacaq və hətta onların həyat şəraiti daha da yaxşılaşacaq.

Hacıyev hesab edir ki, bölgə münaqişədən əziyyət çəkməkdənsə, sülh və çiçəklənməyə doğru gedə, Azərbaycanın böyük neft gəlirlərindən bəhrələniblər: “Ermənistanın təbliğatından asılı olmayaraq, Dağlıq Qarabağda insanların necə pis şəraitdə yaşadığını görürük. Regionda böyük demoqrafik problemlər var. Gənclər oranı tərk ediblər”. Türk jurnalist, professor Kürşad Zorlu “Haber Türk”də yayımlanmış “Prezident Əliyevdən önəmli bəyanat: Şuşaya bir nəfəs qədər yaxınıq!” sərlövhəli məqaləsində

Türkiyənin son baş naziri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə Bakıya səfəri və bu səfərlə bağlı təəssüratlarını qələmə alıb.

“Bütün səfər boyu Azərbaycanda Binəli bəyə böyük marağın olduğunu müşahidə etdim. Bir ara gənclərin qarşımıza “Türkiyə, sizinləyik!” plakatları ilə çıxması ilə emosiya dolu anlar da yaşadıq.” – deyən müxbir Prezident İlham Əliyevlə görüşləri ilə bağlı təəssüratını bu cür qeyd edib: “Prezident İlham Əliyev bizi “Evinizə xoş gəlmisiniz!” – deyərək salamladı. Əhvalı çox yüksək idi, şən görünürdü. Bu mənzərə də cəbhədə işlərin yaxşı getdiyinə dəlalət edirdi.

Əliyev əvvəlcə Prezident Ərdoğan, onun Azərbaycana dəstəyi haqqında danışdı: “Fikri və qəlbi həmişə buradadır. Əgər Türkiyə bu qəti mövqeyi ilə əvvəldən bizim yanımızda olmasaydı, bəzi ölkələrin səsi başqa cür də çıxa bilərdi”.

İki lider arasındakı münasibətlər həqiqətən “bir millət, iki dövlət” deyiminə layiqli səviyyədədir... Xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakıya bir gün əvvəl baş tutmuş səfəri haqda qərar iki lider arasında söhbətdən cəmi bir neçə dəqiqə sonra verilibmiş. Həm də çox vacib bir məsələdə. Prezident Ərdoğan İ.Əliyevdən “Vəziyyət necədir? İşğalı nə vaxt bitirirsiniz?” soruşub, Əliyev isə deyib ki, “İrəlilədikcə görürük ki, hər yerdə evləri, məktəbləri, muzeyləri, məscidləri yandırıblar, məhv ediblər... Zəngilandakı qızıl mədənləri istismar olunub. Bunların dəqiq və obyektiv şəkildə araşdırılmasına ehtiyac var”.

Kürşad Zorlu Prezident İlham Əliyevlə görüş zamanı maraqlı məqama da toxunub : ” Cənab Binəli Yıldırım hər kəsi maraqlandıran sualı verir: “Şuşada vəziyyət necədir?” İcazə verin sadəcə bunu deyim: Azərbaycan Ordusu Şuşaya bir nəfəs qədər yaxındır... “Biz relyef şəraitinə görə çox diqqətli davranırıq. Ermənistana mütəmadi olaraq silah və hərbi texnika gəlir. İndiyədək onların 300-dən çox tankını, 8 ədəd S-300 müdafiə sistemini məhv etmişik. Bu, S-400-dən çox az geri qalan sistemlərdir. Onlar bu silahları Gürcüstan vasitəsilə gətirməyə cəhd göstərdilər, alınmadı. Sonradan bildik ki, cinayətlə məşğuldurlar – onları mülki təyyarələrlə daşıyırlar. Bununla bağlı beynəlxalq qurumlara da müraciət etmişik. Lakin nəticə yoxdur”, – deyə İlham Əliyev bildirib.”

***Hazırladı:***
***Əfsanə BAYRAMQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 6 noyabr.- S.5.